# *Mərhəmətli, Rəhmli Allahın adı ilə!*

## *Müqəddimə*

Həqiqətən şükür və tərif yalnız Allaha məxsusdur! Biz Ona həmd edir, Onu köməyə çağırır, Ondan bağışlanma və bizi doğru yola yönəltməyi diləyirik, nəfslərimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona pənah aparırıq. Allah kimə hidayət verərsə o, doğru yolda olar, kimi azdırarsa onu doğru yola yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir.

«Ey iman gətirənlər! Allahdan layiqincə qorxun və ancaq müsəlman olduğunuz halda ölün!»[1]

«Ey insanlar! Sizi tək bir şəxsdən xəlq edən, ondan da zövcəsini yaradan və onlardan da bir çox kişi və qadın *törədib yer üzünə* yayan Rəbbinizdən qorxun! Adı ilə bir-birinizdən *cürbəcür şeylər* istədiyiniz Allahdan qorxun və qohumluq əlaqələrini kəsməkdən *çəkinin*! Həqiqətən, Allah sizə nəzarət edəndir!»[2]

«Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz söyləyin! *Əgər belə etsəniz* Allah əməllərinizi islah edər və günahlarınızı bağışlayar. Hər kəs Allaha və Onun elçisinə itaət etsə, böyük bir səadətə nail olar».[3]

---

[1] Ali İmran, 102.
[2] ən-Nisa, 1.
[3] əl-Əhzab, 70-71.

Müsəlman qardaş və bacılarım! Uca Allah Muhəmməd peyğəmbəri ﷺ seçib bütün insanlara və cinlərə elçi göndərmişdir. Peyğəmbərimiz ﷺ öz öhdəsinə düşən vəzifəni layiqincə yerinə yetirmiş və axirəti qazanmağımız üçün bizə Allahın dinini öyrətmişdir. Biz müsəlmanlar belə bir dinin bizə gəlib çatmasına sevinməli, Allaha çoxlu-çoxlu şükürlər etməliyik. Peyğəmbərimiz ﷺ bizə yalnız Allah üçün yaşamağı, axirət yurduna can atmağı və qəlbən fani dünyaya bağlı olmamağı nəsihət etmişdir. Bu kiçik risalədə məhz dünyaya bağlı olmamaq barədə, dünyada bir qərib yaxud bir müsafir kimi olmaqdan söhbət gedir.

Uca Allahdan diləyirəm ki, bizləri peyğəmbərlərlə, siddiqlərlə, şəhidlərlə və əməlisalehlərlə birlikdə firdovs Cənnətinə daxil etsin!

*Tərcüməçidən*

# *Qəriblər*

İbn Ömər (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ mənim çiynimdən tutub dedi: "Dünyada bir qərib yaxud bir müsafir kimi ol!"

İbn Ömər (r.a) deyərdi: "Axşama çıxdıqda, səhərə sağ qalacağını və səhərə çıxdıqda axşama sağ qalacağını gözləmə. Xəstələnənədək sağlamlığından və öləndək həyatından istifadə et!"[1]

Bu misallarda olan hikmətin üzərində bir az dayanmaq istərdim. Belə ki, indi hər birimizin durumuna baxsaq çox asanlıqla görə bilərik ki, bir çoxlarımız bu dünya həyatına müvəqqəti, keçici bir həyat kimi baxmırıq. Biz bu həyatı elə yaşayırıq ki, sanki heç buranı tərk etməyəcəyik. Və ya bu dünyanı tərk edəcəyimizi bilə-bilə dünya malını əldə etmək üçün gərgin çarpışmalara baş vururuq. Bu məsələnin – yəni dünyaya bağlılığın mənfi təsirlərini düzgün təsəvvür etmək üçün belə bir təhlükəni bizə aydınladacaq bəzi başqa hədislərə və sələflərin dediklərinə nəzər salmaq lazımdır. Peyğəmbərimiz ﷺ hədislərin birində özünün bu dünyada qərib olduğunu vəsf edib demişdir: "Mənim bu dünyada olan məsəlim, ağacın kölgəsində dincəlib sonra yoluna davam edən müsafirin məsəlinə bənzəyir."[2] Bu hədisdən belə nəticə

---

[1] Sünən Əbu Davud
[2] Sünən ən-Nəsai

çıxır ki, Peyğəmbərimiz ﷺ belə  nə vaxtsa vəfat edib Rəbbinin hüzuruna gedəcəyini yəqin bilirdi. Yəni hətta Allaha yaxın olan peyğəmbərlər belə bu dünyanın əbədi sakinləri olmaq xüsusiyyətindən məhrumdurlar. Bu həyatın müvəqqəti olmasına tam əmin olan peyğəmbərimiz ﷺ və nəinki Peyğəmbərimiz ﷺ, hətta onun din qardaşları, digər peyğəmbərlər də bu əqidədə olmuşdular. Bir zaman İsa عليه السلام öz həvarilərinə demişdir: "Hansı biriniz dənizdəki dalğaların üstündə ev tikər?! Dünyanın məsəli də belədir. Odur ki, bu fani dünyanı qərar tutacağınız yer sanmayın!"[1] Baxın, İsa عليه السلام bu dünya həyatı necə də gözəl izah etmişdir.

Peyğəmbərlərə iman gətirən, onların dəyərli nəsihətlərindən bəhrələnən səhabələr və onların yolunu gedən əməlisaleh sələflər də bu fani dünyaya göz dikməmiş, qəlblərini onun keçici zövqünə bağlamamışlar. Əli ibn Əbu Talib (r.a) öz tələbələrinə həmişə nəsihət edib deyərdi: "Həqiqətən, dünya gəldi-gedərdi və o, artıq geridə qalmışdır. Axirət isə qarşıda hər kəsi gözləməkdədir. İkisinin də öz oğulları (qəlbən ona bağlı olan adamlar) vardır. Siz dünya oğullarından deyil, axirət oğullarından olun! Bu gün bir iş görürsünüz, amma sorğu-suala olunmursunuz. Sabah isə sorğu-suala olunacaq və heç bir iş görə

[1] Zuhd, Əhməd

bilməyəcəksiniz".[1] Dünya həyatının faniliyinə inanmağın, bu dünyada müsafir kimi yaşamağın bir çox faydaları vardır. Axirətə can atan insan heç bir halda dünya malından ötrü cinayətə getməz. Dünyanın aldadıcı olduğuna əmin olan insanın qəlbi saf və təmiz olar və ora heç bir halda həsəd, paxıllıq kimi xəstəliklərin məskəninə çevrilməz. Bu gün dünyanı qan gölünə çevirən, insanları yerindən yurdundan çıxaran qüvvələr elə məhz axirətə inanmayan insanlardır ki, Allah qarşısında olan məsuliyyətlərini də anlamırlar. Amma qəlbini əbədi olan həyata bağlayan insanlar isə tamamilə fərqli düşüncənin sahibidirlər. Onlar çox gözəl anlayırlar ki, əgər dünya həyatı fanidirsə və qərar tutmaq üçün əbədi bir yurd deyilsə, onda hər bir mömin bu dünyada, ya özgə bir ölkədə müvəqqəti qeydiyyatda olan, vətəni üçün darıxan və səbirsizliklə oraya qayıdacağını gözləyən qərib bir adam kimi, ya da gecə-gündüz ölkələr gəzib sonda öz yurduna qayıdan bir müsafir kimi yaşamalıdır. Şübhəsiz ki, yurdundan ayrılmış hansı müsafirdən: "Yaxınların üçün darıxırsanmı?" - deyə soruşsan, o: "Əlbəttə, darıxıram" - deyəcək. Bəs nə üçün biz gözəl axirət yurdu və axirət dostları üçün darıxmayaq?! Sələflərdən Əta əs-Suləmi Allaha dua edib deyərdi: "Allahım! Dünyada qərib yerdə olduğum zaman, qəbirdə tənha qaldığım zaman və

[1] Camiul-Ulum vəl Hikəm, ibn Rəcəb.

nəhayət sabah Sənin hüzurunda dayandığım zaman mənə rəhm et!"[1]

Bir an səfərə hazırlaşan müsafiri gözlərimiz önünə gətirək. Müsafirlər adətən özü ilə səfərə gedəndə ancaq ehtiyacı olan şeyləri götürür. Heç kəs evində olan hər şeyi özü ilə səfərə aparmır. Əgər bu dünya da fanidirsə bəs onda nə üçün insan əldə etdiyi dünya malının daim onun olduğunu güman etməli və həyatını bu yığdıqlarını qorumağa sərf etməlidir? Barı, yığdıqlarını nə vaxt xərcləyəcəyini də düşünəydi! Bəs görəsən o, yığdıqlarını xərcləməyə vaxt tapa biləcəkmi? Əgər o insan düşünürsə ki, bəli “qoy bir müddət toplayım sonra yavaş-yavaş xərcləyərəm” – görəsən hansı əminliklə bu fikirdə olmaq olar? Axı sonsuza qədər misal gətirə bilərik ki, bir çox hallarda bu var dövlət heç sahibinə də qismət olmayır. İnsan öz ixtiyarı xaricində olan canını Rəbbinə təslim etdikdən sonra onun yığdığı sərvətlər həmişə olduğu kimi başqa birisinə nəsib olur. Kaş bütün insanlar göylərdə və yerdə olanların yalnız Allaha məxsus olduğunu biləydilər! Görün Həsən əl-Bəsri bu xüsusda nə demişdir. O demişdir: "Sən yaşadığın günlərin məcmususan. Hər bir keçən gün isə səndən (yəni ömründən) getmiş olur!"[2] Müdrik adamlar deyərdilər: "Günləri ayına, ayları ilinə, illəri də ömrünə

---

[1] əl-Hilyə.
[2] Əvvəlki mənbə.

son qoymuş bir adam dünya həyatına necə sevinə bilər?!..."[1] Həqiqətən də, keçən günləri qaytarmaq mümkün deyil. Lakin Allahın bizə olan rəhmidir ki, tövbə etdiyimiz zaman keçmiş günahlarımızı bağışlayır, hətta onları savaba çevirir. Uca Allah buyurur: "Möminlər Allahla yanaşı başqa tanrıya yalvarmaz, Allahın haram etdiyi cana haqsız yerə qıymaz və zina etməzlər. Bunu edən kimsə cəzalandırılar. Qiyamət günü onun əzabı qat-qat artırılar və bu əzabın içində zəlil olub əbədi qalar. Ancaq tövbə edib iman gətirən və yaxşı işlər görənlərdən başqa. Allah onların pis əməllərini yaxşı əməllərlə əvəz edər. Allah Bağışlayandır, Rəhmlidir!"[2] Peyğəmbər ﷺ demişdir: "İslam dinini qəbul edən kimsənin keçmiş günahları bağışlanar!"[3]

Gəlin bir daha düşünək ki, bizim mənsub olduğumuz İslam dini necə də gözəl dindir. Bu dinin ehkamlarına əməl etdikcə insanın qəlbində bir ümid hisləri özünə yuva qurur. Bu ümid bütün olanlara, bütün keçən və itirilən günlərə rəğmən insana yeni bir yaşamaq həvəsi verir. Artıq sən özün üçün deyil, səni yaradan və sənə ruh verən Rəbbin üçün yaşamağa başlayırsan. Bundan sonra sən yaxın gələcəyi deyil, səni gözləyən və sənə nəhayət rahatlıq gətirəcək daha uzaq və əbədi gələcəyi düşünürsən. Gəlin bir

[1] Əvvəlki mənbə.
[2] əl-Furqan, 70.
[3] Məcməuz Zəvaid, Heysəmi.

anlıq özümüzü xəstəlikdən yataqda can verən, ölümünün isə uzaqda olmadığını bilən və bu dəqiqələri yaşayan insanın yerinə qoyaq. Sizcə ona indi nə lazımdır? Sizcə bu halda onu ev tikmək, övlad evləndirmək və nəvə oynatmaq həvəsi ilə topladığı var dövlət düşündürürmü? Təbii ki, yox deyəcəksiniz. Bəs onda o insan bu an nə haqında düşünə bilər? Bəli, maraqlı sualdır, elə deyilmi? Əgər o insan ömrünün indiki son dəqiqələrində düşündükləri barəsində cavan ikən – qollarında qüvvət, qıçlarında təpər olduğu zaman düşünsəydi bu son vida dəqiqələrini bu qədər dəhşət və “məni indi nə gözləyir?” fikri ilə deyil, qəlbində ümid və sevinc içində keçirərdi. Bu illərdə rəhmətinə ümid etdiyi Rəbbinə qovuşmaq, ona vəd olunan nemətlərə çox qısa bir zamandan sonra sahib çıxaraq rahat yaşamaq ümidi ilə keçən bu son dəqiqələr ona əzab verməzdi. Odur ki, nədən insan onu gözləyən əbədi həyatı deyil, qoyub gedəcəyi müvəqqəti həyatı daha çox düşünür? Sələflərdən Fudeyl ibn İyad bir kişidən: "Neçə yaşın var?" - deyə soruşdu. Kişi: "Altmış yaşım var" - deyə cavab verdikdə, Fudeyl ona dedi: "Altmış ildir ki, Rəbbinə tərəf gedirsən və tezliklə Onun dərgahına qovuşacaqsan." Kişi dedi: "Biz, Allaha məxsusuq və Onun hüzuruna da qayıdacağıq!" Fudeyl dedi: "Sən bu sözün mənasını bilirsənmi? Deyirsən ki, Allahın quluyam, Onun hüzuruna qayıdacağam?! Allahın qulu olduğunu və Onun hüzuruna qayıdacağını bilən

kimsə, Rəbbinin qarşısında dayanacağını yəqin etməli, Rəbbinin qarşısında dayanacağını bilən kimsə, sorğu-sual olunacağını yəqin etməli və nəhayət sorğu-sual olunacağını bilən kimsə, buna cavab hazırlamalıdır!" Kişi ona: "Mənə bir çıxış yolu göstər" – dedikdə, Fudeyl dedi: "Ömrünün qalan hissəsini yaxşı işlərə sərf et ki, keçmiş günahların bağışlansın! Əgər ömrünün qalan hissəsində pis işlər görsən, keçmiş və gələcək günahlarına görə cəzalandırılacaqsan!" Bilin və agah olun ki, Allah rəhmlilərin ən rəhmlisidir. Allah Öz bəndəsinin uzun illər etdiyi günahlarını o, tövbə edən kimi bağışlayır. İbrətamiz bir rəvayətdə Peyğəmbər ﷺ demişdir: "Sizdən əvvəl yaşamış ümmətlər içərisində bir kişi var idi. O, doxsan doqquz adam öldürmüş və *gördüyü işdən peşman idi*. Odur ki, yer üzündə olan ən savadlı adam barədə soruşduqda, ona rahibi göstərdilər. Kişi rahibin yanına gəlib ona doxsan doqquz adam öldürdüyünü xəbər verdi və ondan: "Tövbə etsəm, Allah məni bağışlayarmı?" - deyə soruşdu. Rahib: "Xeyr!" – dedikdə, kişi onu da öldürdü və beləliklə də öldürdüyü adamların sayını yüzə çatdırdı. Sonra yenə yer üzündə olan ən savadlı adam barədə soruşdu. Ona bir alim adamı göstərdilər. Kişi alimin yanına gəlib ona yüz adam öldürdüyünü xəbər verdi və ondan: "Tövbə etsəm, Allah məni bağışlayarmı?" - deyə soruşdu. Alim ona: "Əlbəttə, bağışlayar! Kim Allahla həmin tövbənin arasına girib buna mane ola bilər "- dedi.

Sonra ona nəsihət edib buyurdu: "Get filan yerə! Orada Allaha ibadət edən adamlar var. Sən də onlarla bərabər Allaha ibadət et və bir daha yaşadığın məmləkətə qayıtma. Çünki sən bu yerlərdə günah işlər görmüsən". Kişi çıxıb getdi və yolun yarısına çatdıqda ölüm onu yaxaladı. Bu vaxt onun canını almaq üçün gəlmiş rəhmət və əzab mələkləri mübahisə etməyə başladılar. Rəhmət mələkləri dedilər: "Bu adam tövbə edib qəlbən Allaha yönəlmişdi". Əzab mələkləri isə dedilər: "O əsla yaxşı bir iş görməmişdir". Bu vaxt onların yanına insan qiyafəsində olan bir mələk gəldi. Onlar bu mələyi öz aralarında hökm vermək üçün hakim təyin etdilər. O dedi: "O iki məmləkət arasında olan məsafəni ölçün! Bu məmləkətlərdən (günah işlər gördüyü yerdən və əməlisaleh insanların diyarından) hansı birinə yaxın olsa, qoy ona müvafiq olan mələklər də onun canını alsın!" Onlar ölçüb gördülər ki, o, əməlisaleh insanların diyarına daha yaxındır. Beləliklə də, onun canını rəhmət mələkləri aldı".[1] Bu hədisdən görünür ki, adam nə qədər günah iş görsə də, peşman olub tövbə etdikdə Allah onu bağışlayır. Buna görə də hər kəs elədiyi keçmiş günahlara görə Allahdan bağışlanma diləməyə tələsməli, özünün gələcək əməllərini düzəltməlidir. Mömin bəndə ölümün hər an gələ biləcəyinə yəqinliklə inanmalı, əvvəlcədən buna hazırlıq

[1] Səhih əl-Buxari.

görməlidir. Arxayın olmaq isə çox təhlükəlidir. Maraqlıdır ki, yer üzündə kimdən: "Öləcəksənmi?" - deyə soruşsan: "Əlbəttə, öləcəyəm!" - deyə qəti cavab verər. Amma kimə: "Nə vaxta qədər yaşayacaqsan?" - desən, o adam: "Allah bilir!" - deyər. Həkimlər bu işləri yaxşı bilər. Belə ki, onlar çox vaxt qəribə hadisələrin şahidi olurlar. Bəzən, öləcəyini yəqin etdikləri xəstə Allahın izni ilə sağalmış, bəzən də yaşayacağına zamin durduqları xəstə əcəli çatıb ölmüşdür. Demək, bu sahədə təcrübəsi hamıdan çox olan həkimlər belə, Allahın əzəldən yazdığı qəzavüqədəri dəyişdirə bilməzlər. Onlar yalnız nisbi şəkildə öz fikirlərini yürüdə bilərlər. Elə bu səbəbdən də ölüm barəsində daim düşünmək lazımdır. Çünki sən ölümü unutsan da ölüm səni unutmur. Ölümü və ölümdən sonrakı həyatı yadına salan Allah bəndəsi daim pis əməllərdən çəkinir, insanların haqlarını tapdalamır, valideynlərlə daim gözəl rəftar edir, qohumluq əlaqələrini möhkəmləndirir. Ölümü daim xatırlayan insan həm də ağıllı insandır. Peyğəmbərimiz ﷺ: “Bilirsinizmi ən ağıllı mömin kimdir?” sualını “tez-tez ölümü fikirləşən, buna hazırlıq görən insan!”[1] deyə cavablandırmışdı.

Bir gün üç alim bir yerə yığışıb öz aralarında söhbət edərkən bir-birilərinə sual verməyə başladılar. Birindən: "Ümidin nəyədir?" - deyə soruşdular. O

[1] Səhih ət-Tərğib vət Tərhib.

dedi: "Elə bir ay olmamışdır ki, mən həmin ayda öləcəyimi güman etməyim!" Digərindən də: "Ümidin nəyədir?" - deyə soruşdular. O dedi: "Elə bir cümə olmamışdır ki, mən o cümə öləcəyimi güman etməyim!" Üçüncüsündən də: "Ümidin nəyədir?" - deyə soruşdular. O dedi: "Canı öz əlində olmayan nəyə ümid edə bilər ki?!"[1]

Davud rəvayət edir ki, mən Ətvan ibn Amrdan: "*Bu həyatda* nə vaxta qədər *yaşamağa* ümid etmək olar?" - deyə soruşdum. O da mənə: "Nəfəsin gedib gələnədək!" - deyə cavab verdi. Mən bunu Fudeyl ibn İyada danışanda o ağlaya-ağlaya dedi: "Bu adam nəfəs aldıqda da qorxur ki, onu axıra qədər ala bilməyib ölsün. Keçmiş sələflərdən olan bu dəyərli insanların fikirlərinə diqqət yetirdikcə bizlərin ölüm haqqında nə qədər düşünüb düşünməməyimizi də ölçüb bir nəticə çıxara bilərik. Əsas budur ki, bizlər ölümü sadəcə ölüm kimi deyil yeni həyatın başlanğıcı kimi inanıb qəbul etsin.

Peyğəmbər ﷺ bir kişiyə nəsihət edib demişdir: "Beş şey gələnədək beş şeydən istifadə et! Qocalanadək cavanlığından, xəstələnənədək sağlamlığından, kasıblayanadək var-dövlətindən, məşğul olanadək boş vaxtlarından və ölənədək həyatından!"[2] Amma təəssüf ki, çoxlarımız əziz peyğəmbərimizin ﷺ bu

[1] Zuhd, ibn Mubarək.
[2] Mustədrək, Hakim.

tövsiyələrindən lazımi nəticə çıxarmırıq. Əgər bu əmrlərdən ibrət alsaydıq kasıblıq bizi ağuşuna almamışdan öncə Allahın bizlərə əta etdiyi pulu, imkanı israf etməzdik. Əgər nəticə çıxaran insanlardan olsaydıq bu gün saatlarla vaxtını lağlağıya, musiqiyə, əyləncəyə sərf edib bir an belə ölümü yada salmayan gənclərin sayının durmadan artdığının şahidi olmazdıq. Axı hər ötən dəqiqə, itirdiyimiz hər gün bizi ölümə - sorğu-sual məqamına yaxınlaşdırır. Və ən qəribəsi də budur ki, belə insanlar bir an belə qorxu hiss etmədən sabaha sağ çıxacağını zənn edir, gələcək illər üçün planlar qurur, bu gələcəyə çatmağa çalışır. Amma bəlkə də onun bu çalışmasını qəfil ölüm yarımçıq qoyacaqdır. Biz hər gün evdən iş üçün çıxırıq amma heç ağlımıza belə gəlmir ki, biz evə qayıtmaya bilərik.

Bir kişi dostunun evinə gəlib qapını döydü. Ev əhli qapını açıb onun evdə olmadığını söylədikdə kişi: "O nə zaman qayıdacaq?" - deyə soruşdu. Evdə olan bir qız uşağı ona dedi: "Canı başqasının əlində olan kimsə nə zaman qayıdacağını haradan bilsin?!"

Bəkr əl-Muzəni demişdir: "Qıldığın namazın sənə fayda verməsini istəyirsənsə, onda gərək düşünəsən ki, bu sənin son namazındır".[1]

---

[1] Camiul-Ulum vəl Hikəm, ibn Rəcəb.

Peyğəmbər ﷺ demişdir: "İki nemət vardır ki, insanların çoxu buna laqeyd yanaşır; sağlamlıq və boş vaxt".[1]

"Əzab sizə gəlməmişdən öncə Rəbbinizə üz tutun və Ona itaət edin. *Əzab gəldikdən* sonra sizə heç bir kömək olunmaz. Əzab sizə fərqinə varmadığınız bir halda qəflətən gəlməzdən əvvəl Rəbbinizdən sizə endirilən ən gözəl *Sözə* tabe olun! *Sonra* kimsə deməsin ki: “Allaha qarşı etdiyim etinasızlıqlara görə vay mənim halıma! Həqiqətən, mən *dinə və dində olanlara* rişxənd edənlərdən idim!” Yaxud deməsin: “Əgər Allah məni doğru yola yönəltsəydi, mən mütləq müttəqilərdən olardım!” Həm də əzabı gördüyü zaman deməsin: “Kaş bir də *dünyaya* qayıdaydım və yaxşı işlər görənlərdən olardım!"[2] Həqiqətən də İslam dininə dəvət yolunda olan qardaş və bacılarımız dəvət zamanı ortaya çıxan etinasızlıq, dinə rişxənd kimi halların tez-tez şahidi olurlar. Dində olanlara sanki geridə qalmış bir insanlar kimi münasibət bildirilir. Amma gəlin bir düşünək görək kim geridə qalmış hesab oluna bilər – özünün və gördüklərinin Uca Allah tərəfindən yaradıldığına əmin olan, daim xeyirli işlərə can atıb şərdən və haramdan çəkinən insan, yoxsa bunların təsadüfən özü-özünə yaradıldığını zənn edərək günlərin bir günü də etdiyi

---

[1] Səhih əl-Buxari.
[2] əz-Zumər, 54-58.

günahların, törətdiyi haqsızlığın müqabilində sorğu sual olunaraq cavab verəcəyinə inanmayan insan? Məncə Uca Allah qarşısında özünün məsuliyyət daşıdığına inanan insan daha irəli getmək imkanına malikdir, belə ki, dünya həyatına aldanmayan və axirətdə də peşman olanlardan olmayacaq. Bu xüsusda Uca Allah belə buyurmaqdadır:

"Nəhayət, onlardan birinə ölüm gəldiyi zaman deyər: “Ey Rəbbim! Məni geri qaytar. Bəlkə, tərk etdiyim yaxşı əməlləri *indi* edəm”. Xeyr! Bu onun dediyi ancaq *boş* bir sözdür. Onların arxasında diriləcəkləri günə qədər bir bərzəx aləmi vardır".[1]

"Sizdən birinizə ölüm gəlib: “Ey Rəbbim! Mənə bir az möhlət ver ki, sədəqə verib əməlisalehlərdən olum!” - deməzdən əvvəl sizə verdiyim ruzidən *Allah yolunda* xərcləyin. Allah əcəli çatmış kəsə əsla möhlət verməz. Allah sizin nələr etdiyinizdən xəbərdardır".[2]

Mərvəzi rəvayət edir ki, mən Əhməd ibn Hənbəl dedim: "Bu gün kefin halın necədir?" Dedi ki: "Bir adam ki, Rəbbinin ondan vacib buyurduqlarını yerinə yetirməyini, Peyğəmbərinin ﷺ ondan Sünnəyə riayət etməyini, iki mələyin ondan yaxşı işlər görməyini, nəfsinin ondan istəklərinə tabe olmağını, İblisin ondan günah işlər görməyini, Ölüm mələyinin ondan

---

[1] əl-Muminun, 99-100.
[2] əl-Munafiqun, 10-11.

ruhunu təslim etməyi və nəhayət ailəsinin ondan yemək içmək tələb etdiyini bilə, onun halı necə olar".[1]

Ağlayırdın ey insan, sən dünyaya gələndə,
Sevinib gülürdülər, insanlar yan-yörəndə.
Özün üçün gün ağla, elə işlər gör ki, sən,
Onlar ağlayan zaman, sevinəsən güləsən.[2]

İstər bir gün yaşa, istərsə yüz il,
Bu nurlu eyvandan köçəcəksən, bil.
Yaxşısı budur ki, könlünü şad et,
O böyük Allahı şadlıqla yad et![3]

---

[1] Siyar Əlamun Nubəla, əz-Zəhəbi.
[2] Diyvan, əş-Şafii.
[3] Xosrov və Şirin, səh: 53.